## İlham ƏLİYEV:

# "Biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur"

2018-ci ilin 11 aprel tarixində keçirilmiş növbədənkənar prezident seçkilərindən bir il keçir. Bizləri son prezident seçkilərindən artıq bir illik tarixi dövr ayırır. Azərbaycan xalqı, ölkə seçiciləri həmin tarixi gündə seçki məntəqələrinə gedərək, növbəti 7 il müddətinə öz talelərini etibar edəcək şəxsə səs verdilər. Alternativ əsaslarla, 8 nəfər prezidentliyə namizədin iştirakı ilə keçirilən prezident seçkilərində Azərbaycan seçicilərinin mütləq əksəriyyəti - 86,3%-i, yəni 3 milyon 397 min 664 nəfəri yenidən dövlət başçısı İlham Əliyevə səs verərək, etimad göstərərək, onu daha 7 il müddətinə ölkə Prezidenti seçdilər...

Qeyd edək ki, prezident seçkiləri və onun nəticələri ilə bağlı bəzi daxili və xarici antiazərbaycançı qüvvələr öz "bədbin" proqnozlarını versələr də, yenə də hesabları pozuldu, "proqnozlar"ı özünü bu dəfə də doğrultmadı. Xüsusilə də, ATƏT-in və Avropa Şurasının seçki missiyaları prezident seçkilərini "qara rəng"də təsvir etməyə, seçkiləri və onun nəticələrini şübhə altına almağa çalışsa da, öncədən planlaşdırdıqları niyyətləri, məqsədləri baş tutmadı, hazırladıqları hesabat(lar) heç bir effekt, reaksiya doğurmadı, əksinə, Azərbaycan cəmiyyətinin sərt təpkisinə səbəb oldu. Ən əsası onlara verilən ən sərrast cavab və onlara vurulan ən böyük zərbə elə öz strukturlarından gəldi - ATƏT strukturlarından, AŞPA təsisatlarından, Avropa İttifaqı rəhbərliyindən İlham Əliyevə təbrik məktubları ünvanlandı. Həmçinin, Azərbaycandan və Prezidentinə dünyanın bütün dövlət başçıları, xüsusilə dünyanın əsas gücləri sayılan dövlətlərin rəhbərlərindən - Rusiya Prezidenti Vladimir Putin, ABŞ Prezidenti Donald Tramp, Çin dövlətinin rəhbəri Si Cinpin, o cümlədən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təxminən eyni günlərdə təbrik məktubları gəldi, onlar öz məktublarında İlham Əliyevlə, Azərbaycanla əməkdaşlıq niyyətlərini bir daha bəyan etdilər.

ABŞ Prezidenti Donald Trampın təbrik məktubunda qeyd olunurdu ki, Azərbaycan və Birləşmiş Ştatlar mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edirlər.

"Təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində əməkdaşlığınızı, habelə uzunmüddətli ticarət əlaqələrimizi dəyərləndirirəm. Enerji sahəsində illərlə davam edən əməkdaşlığımız bu il inanılmaz bir nailiyyət kimi, Avropanın zəruri enerji təhlükəsizliyini təmin edəcək ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlib. Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaqdır", - deyə qeyd edən Tramp, həmçinin ATƏT-in Minsk qrupunun həmsədri kimi Birləşmiş Ştatların bu münaqişənin sülh yolu ilə dayanıqlı həlli üçün əməkdaşlığı səmimiyyətlə arzuladığını ifadə etdi.

Rusiya Prezidenti Vladimir Putinin məktubunda isə deyilirdi: "Ölkəniz iqtisadi, sosial, elmi-texniki, humanitar və digər sahələrdə sanballı uğurlar qazanıb. Azərbaycan Respublikasının beynəlxalq aləmdə çox böyük nüfuzu var. Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini məmnuniyyətlə qeyd edirəm. Dövlətlərimiz müxtəlif istiqamətlərdə səmərəli əməkdaşlıq edir, gündəlikdə olan mühüm regional və qlobal məsələlərin həllində fəal qarşılıqlı əlaqə saxlayırlar. Əminəm ki, ölkələrimizin dost xalqlarının rifahı, beynəlxalq sabitliyin və təhlükəsizliyin təmin edilməsi naminə Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığı bundan sonra da hər vasitə ilə möhkəmləndirəcəyik...".

Həmçinin, Çin Xalq Respublikasının dövlət rəhbəri Si Cinpinin təbrik məktubunda qeyd olunurdu ki, son illərdə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir, cəmiyyətdə sabitlik və həmrəylik müşahidə olunur, Azərbaycanın beynəlxalq arenada statusu və təsiri gündən-günə artır.

"Azərbaycanın yaxın dostu kimi Çin buna ürəkdən sevinir. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük diqqət yetirirəm, iki ölkənin və onların xalqlarının xeyrinə qarşılıqlı faydalı əməkdaşlığın bütün sahələrində yeni uğurlara nail olmaq üçün Sizinlə birgə səy göstərməyə hazıram" - deyə daha sonra təbrik məktubunda bildirilirdi.

Eyni zamanda, digər Avropa, Qərb və Şərq ölkələrinin rəhbərlərinin, o cümlədən qardaş və dost Türkiyə dövlətinin prezidentinin Azərbaycan Prezidentinə təbrik məktublarında əməkdaşlıq, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin mövcud səviyyəsindən məmnunluq ifadə edildi, həmçinin bu münasibətlərin daha da dərinləşdirilməsi istəkləri öz əksini tapdı.

### Prezidentin andı...

Seçkilərdən cəmi 6 gün sonra, aprelin 17-də Konstitusiya Məhkəməsinin Plenumu prezident seçkilərinin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasının (MSK) protokolunun Seçki Məcəlləsinin müddəalarına uyğun gəldiyini, İlham Əliyevin səslərin 86,03 faizini topladığı üçün prezident elan edilməsi ilə bağlı qərarını bəyan etdi. Bunun səhərisi günü, aprelin 18-də Prezident İlham Əliyevin Milli Məclisdə (MM) tarixi andiçmə mərasimi keçirildi. Qeyd edək ki, artıq ikinci dəfə idi ki, Milli Məclis belə bir tarixi ana şahidlik edirdi. Düz 5 il öncə də, 2013-cü ilin prezident seçkiləri ilə bağlı prezidentin andiçmə mərasimi də məhz parlamentdə keçirilmişdi və bu, dövlət başçısının MM-ə nə qədər böyük dəyər verdiyinin daha bir əyani sübutudur. Prezident əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq, həmçinin müqəddəs Quran-i-Şərifə əl basaraq and içdi. Daha sonra təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü və geniş nitq söylədi. Dövlət başçısı çıxışında seçkilərdə göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirərək qeyd etdi ki, həmişə Azərbaycan xalqının dəstəyini hiss edib və bu dəstək ona güc verir.

Beləliklə, 18 aprel tarixindən etibarən ölkə rəhbəri İlham Əliyev dövlət başçısı kimi növbəti 7 illik müddətdə prezidentlik fəaliyyətinə başlamış oldu. Vəzifəsinin icrasına başlaması ilə dövlət başçısı bir daha ötən 25 illik siyasətə, onun davam etdirilməsinə qərarlılıq, əsası 1994-cü ildən, "Əsrin müqaviləsi"ndən qoyulmuş uğurlu neft strategiyasından başlanan enerji siyasətində qətiyyətlilik nümayiş etdirdi. Burada mütləq şəkildə qeyd etmək yerinə düşər ki, ümumiyyətlə, 2018-ci il Azərbaycan xalqının və dövlətinin tarixində, 27 illik müstəqillik dönəmində ən əlamətdar illərdən biri kimi tarixə düşdü. Belə ki, hələ prezident seçkilərindən əvvəl, 2018-ci ilin yanvar ayında Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100-cü ildönümü ilə bağlı ölkə Prezidenti 2018-ci ili "Cümhuriyyət İli" elan etdi və bununla əlaqədar müvafiq sərəncam imzaladı. Bu sərəncamdan da irəli gələrək AXC-nin yüz illik yubileyi ilə yüksək səviyyəli dövlət tədbirlərinin keçirilməsinə start verildi. May ayının 28-də AXC-nin yüz illiyi ilə bağlı ölkə Prezidentinin rəsmi (təntənəli) qəbulu təşkil edildi. Tədbirdən öncə ölkə Prezidenti AXC qurucularının şərəfinə ucaldılmış abidəni ziyarət etdi. Rəsmi qəbulda geniş nitqində isə ölkə Prezidenti AXC-nin yaradılmasını, 23 aylıq fəaliyyətini tarixi hadisə adlandırdı. Dövlət başçısı "İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır...", - deyərək sözlərinə əlavə etdi.

### Cənub Qaz Dəhlizi və ya yeni enerji damarı...

Ümumiyyətlə, son bir il ərzində görülmüş işləri bir yazıda işıqlandırmaq, onlardan bəhs etməsək, adlarını belə saysaq, kifayət etməz, yetərli olmaz. Çünki bir il ərzində o qədər geniş, möhtəşəm, miqyaslı layihələr, tədbirlər keçirilib ki, müstəqilliyimiz, müstəqil inkişaf xəttimiz, müstəqil dövlət siyasətimiz olmadan, onlara nail ola bilməzdik. Bu işlər, bu tədbirlər ötən əsrdə ikinci dəfə əldə etdiyimiz dövlət müstəqilliyimizin, o cümlədən 1993-cü ildən bu yana həyata keçirilən və son bir il ərzində ən yüksək zirvəsinə çatan müstəqil dövlət və müstəqil inkişaf xəttinin, ölkə Prezidentinin son dərəcə uğurlu siyasətinin bəhrələridir. Ona görə çalışmışam ki, bu yazıda ən vacib məqamlara diqqət yetirək.

Bu yerdə konkret olaraq, yeni enerji damarı kimi xarakterizə edilən Cənub Qaz Dəhlizinin (CDQ) açılışını qeyd etmək istərdik. CDQ-nin yüksək səviyyəli açılışını həyata keçirməklə, Azərbaycan öz ikinci müstəqillik tarixində, ümumiyyətlə, müstəqil dövlətçiliyinin, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100-cü ildönümündə daha bir uğuruna imza atdı. Nəinki yerləşdiyi bölgənin, həmçinin Avropanın və dünyanın enerji təhlükəsizliyində əsas aktyorlardan birinə çevrilən Azərbaycan CDQ-nin təntənəli açılış mərasiminə tarixi evsahibliyi etdi. Ölkə Prezidentinin və nüfuzlu xarici qonaqların iştirakı ilə Səngəçal terminalında CDQ-nin tarixi açılış mərasimi baş tutdu və bununla da Azərbaycan dünyanın enerji təhlükəsizliyinin təmin olunmasına növbəti töhfəsini vermiş oldu. Qeyd edək ki, enerji resurslarının şaxələndirilməsi işində çox önəmli layihə olan CDQ enerji təhlükəsizliyi məsələlərinin həllində də mühüm əhəmiyyət daşıyır. Çünki bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır. Bu baxımdan da hesab edirəm, eyni zamanda, açılış mərasimində də vurğulandığı kimi, CDQ əvəzolunmaz bir layihədir. Həmçinin, ölkə Prezidenti bu günlərdə etdiyi son çıxışlarının birində CDQ mövzusuna toxunaraq, yaxın gələcəkdə bunun işə düşəcəyini və böyük gəlir gətirəcəyini vurğuladı.

Bütövlükdə, CDQ dörd böyük layihədən ibarətdir ki (Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi), bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP-ın da artıq böyük hissəsi, 70 faizindən çoxu icra olunub. Ona görə hesab edirəm ki, 2019-2020-ci illər ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan CDQ icra edilmiş olacaq. Bu tarixi nailiyyət isə bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

### TANAP, yaxud "ikinci qan damarı..."

Ötən əsrin 90-cı illərində, xüsusilə də 1994-cü ildə baş tutan "Əsrin müqaviləsi" ilə uğurlu neft strategiyası həyata keçirən və qısa müddət ərzində dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkəmiz CDQ-nin açılışından sonra yeni, növbəti uğuruna imza atdı. Dünya Azərbaycanın iştirakı və təşəbbüsü ilə gerçəkləşdirilən daha bir tarixi layihənin açılışı mərasiminə şahidlik etdi. Belə ki, Türkiyənin Əskişəhər şəhərində "ikinci qan damarı" adlandırılan TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibəti ilə təntənəli mərasim keçirildi. TANAP-ın istismara verilməsini Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürü kimi qiymətləndirən Azərbaycan Prezidenti bu layihəni Türkiyə ilə Azərbaycanın növbəti zəfəri adlandırdı və qeyd etdi ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Həmçinin, vurğulandı ki, son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaq. Eyni zamanda, açılış mərasimində də vurğulandığı kimi, enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP həm də qarşıdakı illərdə həyata keçiriləcək yeni layihələrin müjdəsidir. Elə layihə ilə bağlı rəqəmlər bu həqiqəti açıq-aşkar ortaya qoyur. Belə ki, diametri 56 düymlük borulardan ibarət olan 1850 kilometrlik TANAP Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. TANAP 20 vilayət, 67 rayon və Çanaqqala boğazını keçən marşruta sahibdir. Bu layihənin ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr təbii qazdır. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql olunacaq. Tələbdən asılı olaraq, ötürücülük qabiliyyətinin əvvəlcə 22 milyard, daha sonra əlavə sərmayələrlə 31 milyard kubmetrə çatdırılması hədəflənir.

Bu baxımdan məmnunluq hissi ilə qeyd etmək gərəkir ki, Trans-Anadolu qaz kəməri layihəsinin icrası müstəqilliyimizin daha bir mühüm hadisəsi kimi tarixə düşdü. Azərbaycanın və Türkiyənin möhkəm işbirliyi, qardaşlığa və dostluğa söykənən fəaliyyətləri bu strateji layihənin uğurla reallaşmasında əhəmiyyətli rol oynadı. Ölkəmizin iqtisadi qüdrətinin, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu bir daha təsdiqləyən TANAP bununla da Azərbaycanın dünyanın siyasi və iqtisadi həyatındakı yerini və özəlliyini nümayiş etdirdi...

### 22 illik yolun son manifesti - Aktau razılaşması...

Hamımız bilirik ki, 5 Xəzəryanı dövlət arasında Xəzərin hüquqi statusuna dair konvensiyanı imzalamaq nə qədər çətin və mürəkkəb bir proses idi. Hələ 23 il bundan qabaq, 1996-cı ildən ulu öndər Heydər Əliyev bu mürəkkəb məsələnin həlli üçün bütün var gücü ilə çalışırdı. Bu istiqamətdə Xəzəryanı dövlətlərin rəhbərləri, rəsmilərilə ayrılıqda müzakirələr, söhbətlər aparırdı, onları belə bir konvensiyanın imzalanmasının vacibliyinə inandırmağa çalışırdı. Eyni zamanda, bu xətt, bu siyasət 2003-cü ildə hakimiyyətə gələn cənab İlham Əliyevin dövründə də davam etdirildi, bu yöndə mühüm addımlar atıldı və nəhayət, ötən ilin avqustunda Qazaxıstanın Aktau şəhərində Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı tarixi hadisə baş verdi. Xəzəryanı dövlət başçılarının 5-ci Zirvə toplantısında 22 illik danışıqlar prosesinə yekun vurularaq, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması mərasimi keçirildi və Konvensiya 5 Xəzəryanı dövlətin başçısı tərəfindən imzalandı.

Bir daha qeyd etmək istərdik ki, bu razılaşmanın baş tutmasında Azərbaycanın, xüsusilə də mərhum dövlət başçısı Heydər Əliyevin və ölkə Prezidenti İlham Əliyevin rolu, xidməti çox böyükdür və danılmazdır. Məhz onların səyləri və uzaqgörən siyasətləri nəticəsində 22 ildən sonra Xəzərlə bağlı belə tarixi anlaşma əldə edildi. Beləliklə, Aktau Konvensiyası Xəzəryanı dövlətlərin münasibətlərində və qarşılıqlı əməkdaşlığında yeni mərhələ kimi tarixə düşdü. Bu Konvensiya, Aktau anlaşması imkan verəcək ki, bu dövlətlər arasında münasibətlər növbəti mərhələlərdə də inkişaf etdirilsin, Xəzərin əsl sülh və təhlükəsizlik dənizinə çevrilməsinə özünün növbəti töhfələrini versin. Çünki Xəzər hamımızındır, 5 Xəzəryanı dövlətindir və bu dənizin sülh, təhlükəsizlik dənizi funksiyasını icra etməsi olduqca önəmlidir, vacibdir. Hər bir Xəzəryanı dövlətin milli və dövlətçilik maraqlarına, mənafelərinə cavab verən bir məsələdir. Odur ki, Aktau Konvensiyası hələ növbəti illərdə, növbəti mərhələlərdə də öz sözünü deyəcək, öz tarixi rolunu oynayacaq və bu bölgənin, bütövlükdə dünyanın təhlükəsizliyinə öz töhfələrini verməkdə davam edəcək.

### STAR: Türkiyə-Azərbaycan dostluğu və qardaşlığının növbəti ifadəsi...

Ötən bir ilin uğurlarından bəhs edərkən, Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimini qeyd etməmək mümkün deyil. Hələ 2011-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təməli atılan "Star" zavodu hər iki ölkənin, bütövlükdə isə bu bölgənin iqtisadi inkişafında və enerji təhlükəsizliyinin təmin olunmasına öz müsbət töhfələrini verəcək tarixi layihədir. Təsadüfi deyil ki, tarixi və təntənəli açılış mərasimində də bu məqamlar bir daha vurğulandı, dilə gətirildi. Belə ki, dövlət başçılarının çıxışlarında sözügedən zavodun təməlinin 7 il öncə birlikdə qoyulduğu xatırladılaraq, vurğulandı ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Həmçinin, ifadə edildi ki, "Star" layihəsinin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

Qeyd edək ki, illik istehsal gücü 10 milyon ton olan "Star" neft emalı zavodu ilk beş il müddətində Azərbaycan iqtisadiyyatına ildə 850 milyon ABŞ dolları, sonrakı dövrlərdə isə hər il 600 milyon ABŞ dollarından çox gəlir gətirəcək. Bu baxımdan hesab edirəm ki, Azərbaycan dünya miqyaslı əhəmiyyətə malik bir zavodun sahibidir və bu da əbədi kapital deməkdir. Bu baxımdan çox sevinirəm ki, Azərbaycanın xarici investisiya yatırımı artıb. Çox sevinirəm ki, Azərbaycan-Türkiyə münasibətlərində gündən-günə möhkəmlənən yeni müsbət məqamlar - meyillər özünü göstərir. Sevinirəm ki, Türkiyənin bu məhsullarla bağlı idxalı, həmçinin çəkdiyi xərclər azalacaq. Yəni, bu layihə həm istehsalçı olaraq bizim üçün, həm də istehlakçı kimi Türkiyə üçün maraqlıdır. Bu kimi layihələrin genişlənməsi onu göstərir ki, Azərbaycan bu gün dünyəvi layihələrdə iştirak edən mühüm bir tərəfdaş-dövlətdir

### Davos Forumu və ya "Bir kəmər, bir yol..."

Ötən bir ilin uğurları sırasında, heç şübhəsiz ki, ən mühüm yerlərdən birini Azərbaycanın uzun illərdən bəri qatıldığı Davos İqtisadi Forumu, dünyanın ən böyük super güclərindən olan Çin Xalq Respublikası ilə reallaşdırılan "Bir kəmər, bir yol" layihəsi təşkil edir. Belə ki, tarixi "Bir kəmər-bir yol" təşəbbüsü, layihəsi Azərbaycan üçün daimi kapitaldır, gəlir mənbəyidir, yeni iş yerləridir, siyasi mövqedir, ölkəmizin həm də iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. Ona görə bu layihə hansısa bir maddi dəyərlə, qiymətlə ölçülməyən məsələdir. Elə bu kimi tarixi və dünyamiqyaslı layihələrin reallaşdırılmasının nəticəsidir ki, Azərbaycan borc alan ölkədən bu gün borc verən ölkəyə çevrilib. Azərbaycana həm investisiya yatırılır, həm də ölkəmiz özü investisiya, sərmayə yatıran ölkəyə çevrilib.

Həmçinin, Azərbaycanın, ölkə Prezidentinin 2000-ci illərdən Davos İqtisadi Forumunda müntəzəm iştirakı hər dəfə yeni məqamlarla özünü göstərir, xarakterizə olunur. Yəni, Azərbaycan dövləti, ölkə Prezidenti hər dəfə ölkəmizin yeni, növbəti müsbət inkişafını xarakterizə edən məqamlarla orada iştirak edir, bu yöndə öz təcrübəsini bölüşür, dünyanın iqtisadi təhlükəsizliyinə töhfələrini verir. Odur ki, son bir il də bu baxımdan tarixdə, yaddaşda qaldı. Konkret olaraq, sonuncu Davos Forumunda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə keçirilən görüş zamanı Azərbaycan hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti və Dünya İqtisadi Forumunun prezidenti arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi. Həmçinin, Forum çərçivəsində yuxarıda haqqında bəhs edilən "Bir kəmər, bir yol" təşəbbüsü ilə bağlı mühüm hadisə baş verdi. "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirildi. Həmin sessiyaya qatılanlar arasında İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da vardı. Heç təsadüfi deyil ki, həmin tədbir zamanı sessiyanın aparıcısı ilk sualı da iştirakçılar arasında məhz İlham Əliyevə ünvanladı.

"Gəlin Sizdən başlayaq, cənab Prezident. "Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycan kimi qonşu ölkə üçün nə deməkdir? Mən bilirəm ki, Siz ölkənizin iqtisadi fəaliyyətini təkcə neft-qaz sahəsinə yox, eyni zamanda, infrastrukturun qurulmasına yönəltmisiniz" sualına cavabında Azərbaycan Prezidenti məlum təşəbbüsü dəstəklədiyini bəyan etdi və bunları söylədi:

"...Bu da bizə yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcək. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz, əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik".

Dövlət başçısı sonra qeyd etdi ki, Azərbaycan həm də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir.

Dövlət başçısı sözlərinə davam edərək "Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik. Yükdaşımaların həcmi də artır. Yalnız Şimal-Cənub dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb", - deyə fikirlərini tamamladı

Həmçinin qeyd edək ki, Davos Forumu zamanı söylənənlər sadəcə sözlərdən, istəklərdən ibarət deyildi, bunlar konkret fəaliyyətdən, konkret addımlardan doğan fikirlər, niyyətlər idi. Heç təsadüfi deyil ki, Azərbaycan Prezidenti Çin Xalq Respublikası (ÇXR) sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfər etdi. Qeyd edək ki, ölkə Prezidenti beynəlxalq foruma qatılaraq, orada geniş nitq söylədi, bir daha Azərbaycan bu təşəbbüslə bağlı müsbət mövqeyini ifadə etdi. Forumdan öncə isə ÇXR sədri Si Cinpinlə bir araya gələn dövlət başçısının görüşündə yenə əsas müzakirə mövzusu "Bir kəmər, bir yol" təşəbbüsü, layihəsi oldu. Çinin rəhbəri tərəfindən bir daha vurğulandı ki, Azərbaycan tərəfi və ölkə Prezidenti kimi İlham Əliyev Çin-Azərbaycan münasibətlərinin inkişafına, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə reallaşdırılmasına böyük diqqət yetirir. Qeyd edildi ki, Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Si Cinpin "Sizinlə birlikdə ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram...", - deyə bildirdi və əlavə etdi ki, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Trans-Xəzər nəqliyyat dəhlizi mühüm əhəmiyyət daşıyır. Bütün bunlar nəticə etibarı ilə Azərbaycanın bir daha həm məlum layihəyə, həm də Çinlə münasibətlərin inkişafına necə böyük önəm verdiyini təsdiqləmiş oldu.



**Ziyad SƏMƏDZADƏ,**
**akademik, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.**

### Regionlara səfərlər, simasını dəyişən bölgələr, iş yerləri...

Ölkənin regional inkişafı xüsusilə, regionların tarazlı inkişafı, bölgələr arasında böyük fərqlərin aradan qaldırılması istiqamətində görülən işlər 2018-ci ildə daha böyük sürətlə və templə həyata keçirildi. Bu inkişaf öz keyfiyyət məzmununa və mahiyyətinə görə bir sıra hadisələrlə yadda qaldı. Yəni hələ ölkə Prezidentinin hakimiyyətə gəldiyi ilk günlərdən, 2003-2004-cü illərdən regionların inkişafını əsas prioritetlərdən biri kimi müəyyənləşdirməsi, bu yöndə davamlı addımlar atılması 11 aprel seçkilərindən sonra daha böyük vüsət aldı. Belə ki, dövlət başçısı 11 aprel seçkilərindən heç bir ay keçməmiş regionlara səfərlərini davam etdirməyə başladı. İlk səfərini də may ayının 4-də ölkənin Şimal bölgəsinə, Xaçmaz və Xızı rayonlarına etdi və həmin bölgələrdə bir sıra açılışlara qatıldı. Ümumiyyətlə, istər prezident seçkilərindən əvvəl, yəni 2018-ci ilin 1 yanvar - 11 aprel tarixləri ərzində, prezident seçkilərindən və 18 aprel andiçmə mərasimindən sonra, 18 aprel - 31 dekabr tarixləri ərzində dövlət başçısı üst-üstə Azərbaycanın yuxarıda adları çəkilən bölgələri də daxil olmaqla, 24 bölgəsinə səfərlər (Şamaxı, İsmayıllı, Lənkəran, Masallı, Lerik, Astara, Ağdam, Ağcabədi və sair) edib və onlarla obyektlərin, müəssisələrin açılışlarında iştirak edib. Bu haqda dövlət başçısı özü 2019-cu ilin yanvar ayının 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda çıxışı zamanı da məlumat verərək bildirdi ki, bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində əlavə göstərişlər verilir.

"Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanmışdır. Bu sərəncamlar bölgələrimizdə çox böyük əks-səda verir və böyük nəticələrə gətirib çıxarır. Dediyim kimi, bölgələrə səfərlərim həm vətəndaşlarla təmasda olmaq, həm görülən işlərə nəzarət etmək, həm də gələcəkdə görüləcək işlərlə bağlı düzgün addımların atılması üçün gözəl imkan yaradır. Mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam, ən azı hər bir rayonda 5 dəfə, elə rayon var ki, 10 dəfədən çox olmuşam və bu müntəzəm səfərlərin çox böyük əhəmiyyəti var...", - deyə dövlət başçısı sözlərinə əlavə etdi.

2019-cu ilin yanvar ayının 1-dən aprel ayının 11-nə kimi isə dövlət başçısı regionlara səfərlərini davam etdirərək, iki dəfə (yanvar və fevral aylarında) ölkənin 3-cü böyük şəhəri və əsas sənaye mərkəzlərindən olan Sumqayıt şəhərinə, o cümlədən 13 fevral tarixində Beyləqan rayonuna, həmçinin Şamaxı və Ağsu rayonlarına getdi.